“Baku Open - 2026”
Beynəlxalq Şahmat Festivalının

Ə S A S N A M Ə S İ

1. Məqsəd və vəzifələr

1.1. Azərbaycanda şahmatın təbliği və inkişafı;
1.2. Şahmatçıların oyun təcrübəsinin və beynəlxalq reytinqinin artırılması, beynəlxalq normaların yerinə yetirilməsi;
1.3. Gənc şahmatçıların Avropa, dünya çempionatlarına hazırlığı;
1.4. Azərbaycan hakimlərinin beynəlxalq normalarının ödənilməsi.

2. Təşkilatçılar

2.1. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi;
2.2. Azərbaycan Şahmat Federasiyası.

3. Keçirilmə yeri və tarixi

3.1. Festival Bakı şəhərində “Crystal Hall”-da təşkil olunacaq.
3.2. Festival 27 aprel - 06 may 2026-cı il tarixlərində keçiriləcək.

4. Keçirilmə qaydaları

4.1. Yarışlar FIDE-nin oyun qaydaları əsasında keçirilir.
4.2. Azərbaycan Şahmat Federasiyası Əsasnamədə qeyd edilməyən digər hallarla bağlı qərar vermək hüququnu özündə saxlayır.
4.3. Festival 3 qrupda - A, B, C qruplarında təşkil olunur.
4.4. Qruplar üzrə tələblər aşağıdakı cədvəldəki kimidir:
4.4.1. A qrupunda 2250 və yüksək reytinqli kişi, 2100 və daha yüksək reytinqli qadın şahmatçılar iştirak edə bilər.
4.4.2. B qrupunda beynəlxalq reytinqi 2249-dək olan şahmatçılar iştirak edə bilər.
4.4.3. C qrupunda 12 yaşadək (2014-cü il təvəllüdlü və daha kiçik yaşlı) şahmatçılar iştirak edə bilər. Burada qeydiyyat zamanı reytinqli şahmatçılara üstünlük verilir. Reytinqi olmayan şahmatçılar AŞF-nin qərarı ilə buraxa bilər.
4.5. Hər üç qrupda yarış İsveçrə sistemi üzrə 9 turdan ibarət olmaqla keçirilir.
4.6. Oyuna nəzarət vaxtı oyunun sonunadək 90 dəqiqə, birinci gedişdən etibarən hər gedişə 30 saniyə əlavə olunmaqla (90 dəqiqə+30 saniyə/hər gedişə) nəzərdə tutulur.
4.7. Tura gecikmə vaxtı 15 dəqiqədir.
4.8. Xallar bərabər olarsa qalib əmsalları aşağıdakı ardıcıllığı ilə müəyyən edilir:

A və B qrupları üzrə	C qrupu üzrə
1. Rəqiblərin orta reytinqi (80)	1. Şəxsi görüşün nəticəsi (11)
2. Şəxsi görüşün nəticəsi (11)	2. Qələbələrin sayı (68)
3. Qələbələrin sayı (68)	3. Qısaldılmış Bucholts əmsalı (0,-1) (84)
4. Buhqolts əmsalı (84)	4. Buhqolts əmsalı (84)

4.9. Yarışların püşkatması “Swiss-Manager” proqramı vasitəsi ilə aparılacaq. Nəticələr və püşkatmalar gündəlik olaraq və www.chess-results.com saytında dərc olunacaq.

4.10. Yarışların cədvəli aşağıdakı kimidir:

Tarix	Tədbir	Saat
27 aprel 2026	Gəlmə günü	Gün ərzində
	Qeydiyyatın təsdiqi	10:00-20:00
28 aprel 2026	Açılış mərasimi	14:30
28 aprel 2026	1-ci tur	15:00
29 aprel 2026	2-ci tur	15:00
30 aprel 2026	3-cü tur	15:00
01 may 2026	4-cü tur	15:00
02 may 2026	5-ci tur	15:00
03 may 2026	6-cı tur	15:00
04 may 2026	7-ci tur	15:00
05 may 2026	8-ci tur	15:00
06 may 2026	9-cu tur	15:00
	Bağlanış mərasimi	20:00

5. Qeydiyyat və üzvlük haqqı

5.1. Qeydiyyat yarış elan olduğu gündən etibarən 17 aprel 2026-cı il tarixinədək aparılır.

5.2. Qeydiyyat yalnız onlayn qaydada festivalın internet səhifəsində (bakuopen.chess.az) aparılır.

5.3. Yarışda iştirak üçün üzvlük haqqı aşağıdakı cədvələ əsasən müəyyən olunur:

Qrup	Kişilər		Qadınlar	
A qrupu	2400-2450	50 AZN	2300 <	-
	2350-2399	60 AZN	2250-2229	40 AZN
	2250-2349	80 AZN	2100-2249	60 AZN
B qrupu	1801-2249	40 AZN	1801-2249	20 AZN
	<1800	60 AZN	<1800	30 AZN
	Reytinqsiz	80 AZN	Reytinqsiz	40 AZN
C qrupu	Ödənişsiz			

5.4. Üzvlük haqqından azaddırlar:

a) Beynəlxalq Qrossmeysterlər (kişilər və qadınlar)
b) Beynəlxalq Ustalar (kişilər və qadınlar)
c) Veteranlar (60 yaş və daha yuxarı)
d) Beynəlxalq reytinqi 2450-dən yüksək şahmatçılar
e) 12 yaşadək uşaqlar

6. Mükafatlandırma

6.1. Ümumi mükafat fondu 50.000 ABŞ dolları təşkil edir.

6.2. Mükafat fondu Azərbaycan Şahmat Federasiyası tərəfindən təmin edilir.

6.3. Mükafatlar yalnız köçürmə yolu ilə şahmatçının bank hesabına ödənilir.

6.4. A və B qrupu üzrə mükafatlar aşağıdakı cədvəllərə əsasən müəyyənləşdirilir:

Yer	A qrupu			B qrupu			
	Ümumi hesabda	Qadınlar arasında	16 yaşadək	Ümumi hesabda	Qadınlar arasında	0-1750 reytinqli	1751-2000 reytinqli
1	10.000$	1.500 $	800 $	1.500$	300 $	300 $	300 $
2	7.000$	1.200 $	500 $	1.000$	200 $	200 $	200 $
3	5.000$	1.000 $	300 $	700$	150 $	150 $	150 $
4	3.000$			500$			
5	2.000$			400$			
6	1.600$			300$			
7	1.200$			250$			
8	1.000$			250$			
9	800$			250$			
10	700$			200$			

6.5. Mükafat fondunun məbləği Azərbaycan Respublikasında tətbiq edilən bütün növ vergilərdən azaddır.

6.6. Hər üç qrupda (A, B, C) qalib olan şahmatçıya kubok verilir.

6.7. C qrupunun qalibi olan yerli şahmatçı 2-13 noyabr 2026-cı il tarixlərində Yunanıstanın Rodos şəhərində keçiriləcək yeniyetmələrin Avropa çempionatına ezam olunacaq.

6.8. C qrupunda 8, 10, 12 yaşadək oğlanlar və qızlar arasında ilk 3 yeri tutan şahmatçılar Gənclər və İdman Nazirliyinin diplomları və Azərbaycan Şahmat Federasiyasının hədiyyələri ilə mükafatlandırılır.

6.9. Bir iştirakçı mükafata layiq bir neçə yer tutarsa, yalnız 1 mükafat (ən yüksək olanını) əldə edə bilər.

6.10. İki və daha çox şahmatçı eyni xal toplayarsa mükafat bölünmür, əlavə göstəricisi üstün olan iştirakçıya verilir.

7. Yerləşmə və dəvət edilən şahmatçılar

7.1. Beynəlxalq reytinqi yüksək bəzi şahmatçılar təşkilatçı tərəfindən dəvət olunur:

7.1.1. Reytinqi 2550-dən yüksək şahmatçılar iki nəfərlik otaqda tam qidalanma ilə (müraciət edən ilk 4 şahmatçı);

7.1.2. Reytinqi 2600-dən yüksək şahmatçılar iki nəfərlik otaqda tam qidalanma ilə, 500 USD səfər xərci (müraciət edən ilk 4 şahmatçı);

7.1.3. Reytinqi 2650-dən yüksək şahmatçılar tək nəfərlik otaqda tam qidalanma ilə, 1000 USD səfər xərci (müraciət edən ilk 4 şahmatçı);

7.1.4. Reytinqi 2700-dən yüksək ilk 4 şahmatçı tək nəfərlik otaqda tam qidalanma ilə, 1500 USD səfər xərci.

7.2. İştirakçılar üçün otel xərcləri aşağıdakı cədvəldəki kimi təklif olunur:

Otel	İki nəfərlik otaq		Tək nəfərlik otaq	
	Səhər yeməyi ilə	3 dəfə yeməklə	Səhər yeməyi ilə	3 dəfə yeməklə
Sheraton Hotel Intourist *****	175	-	150	-
Riviera Hotel ****	114	-	87	-
Ibis Hotel ***	138	201	115	175

7.3. Qeyd: Bütün qiymətlər AZN ilə göstərilmişdir. ƏDV yalnız Ibis Hotel-in qiymətlərinə daxildir. Bütün otellərə 1,30 AZN məbləğində Bələdiyyə Vergisi tətbiq olunur və yuxarıda göstərilən qiymətlərə daxil deyil.

7.4. Yarışın rəsmi oteli İbis oteldir və dəvət edilən oyunçular İbis oteldə qəbul olunur. Yarış zalına nəqliyyat yalnız İbis oteldən təşkil olunur.

8. Apellyasiya

8.1. Baş hakimin qərarlarına qarşı etirazlar Apellyasiya Komissiyasına təqdim edilə bilər. Apellyasiya Komissiyasının üzvlərinin seçilməsi və təyin edilməsi Təşkilat Komitəsi tərəfindən həyata keçirilir.

8.2. Etirazlar oyun başa çatdıqdan sonra 1 (bir) saat ərzində yalnız yazılı şəkildə və müvafiq rüsumun - 200 (iki yüz) AZN ödənilməsi ilə təqdim edilə bilər.

9. Media

9.1. Festival boyunca yalnız akkreditə olunmuş media nümayəndələrinə fotoçəkiliş aparılmasına icazə verilir.

9.2. İşıq (flash) vasitəsilə fotoçəkiliş yalnız turlar başladıqdan sonra ilk 5 (beş) dəqiqə ərzində mümkündür.

10. Viza və miqrasiya

10.1. Elektron vizaları aşağıdakı linkdən asanlıqla əldə etmək olar: https://evisa.gov.az/az/

10.2. E-vizaya uyğun ölkələrin siyahısı https://evisa.gov.az/az/countries saytındadır.

10.3. E-vizaya aid olmayan ölkələrin şahmatçıları Azərbaycanın həmin ölkədəki səfirliyi ilə əlaqə saxlamalıdırlar.

10.4. Ehtiyac yaranarsa Təşkilat Komitəsi giriş vizasının alınmasında dəvət məktubu ilə köməklik göstərir.

10.5. Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyinə uyğun olaraq, əcnəbilər Azərbaycan Respublikası ərazisində olduqları halda, yaşadıqları yer üzrə 14 (on dörd) gün müddətində qeydiyyata düşməlidirlər. https://migration.gov.az/en

Əlaqə:
Azərbaycan Şahmat Federasiyası
Təşkilat Komitəsi
E-mail: bakuopen@chess.az
Web: bakuopen.chess.az